İki cümləni oxucunun nəzərinə çatdırırıq: «Mən kitabı stolun üstünə qoydum» və «Yazıçı yeni kitabını tamamladı». Kitab haqqında iki müxtəlif təsəvvür, birinci halda kitab maddi mədəniyyət məhsulu olub, mətbəədə hazırlanmış əşyadır, onun müəyyən şəkili, ölçüsü, çəkisi vardır. İkinci halda ədəbiyyat, ictimai-siyasi fikir, elm, incəsənət əsəri nəzərdə tutulur. Birinci halda kitabın maddi mahiyyəti, ikinci halda onun məzmunu nəzərə çatdırılır.

Şəksiz kitabda başlıca cəhət onun məzmunudur. Bu sətirlərin müəllifinə Qərb ölkələrində kitab aludələri üçün hazırlanmış «məzmunsuz» kitabları görmək müyəssər olmuşdur. Belə yaraşıqlı, qızılı cildi olan kitabın səhifələri bomboş, ağappaq idi. O, biri kitabın səhifələri dolu idi. Ancaq qarmaqarışıq hərflərdən nə söz əmələ gəlirdi, nə də cümlə.

Məzmunsuz kitablar!

Məgər bunlar da kitabdır?

Əlbəttə, yox!

Kitabın funksional vəzifəsi hər hansı, tamamilə müəyyən informasiyanı saxlamaq və vermək (zaman və məkanda) məqsədilə, əks etdirməkdən ibarətdir. Əgər bu dediyimiz yoxdursa, kitab da yoxdur! Yalnız kitabın formasına bənzəyən bir əşya vardır. Əslində bu, kitab şəklində hazırlanan parfumeriya və ya şokolad dəstidir, pul kisəsidir, karandaşçərtəndir.

Kitabdan elm, ədəbiyyat, incəsənət əsəri kimi danışarkən, biz onun sinfi xarakterini, ideya mənasını nəzərə çarpdırır və göstəririk ki, kitab siyasi tərbiyənin və ideoloji mübarizənin ən mühüm vasitəsidir.

«Kitab böyük qüvvədir». Lenin bu dəyərli sözləri Oktyabrdan sonrakı ilk günlərdən birində demişdir. Bəşər cəmiyyətinin tarixində mətbu sözün böyük roluna yığcam, eyni zamanda aydın qiymət vermişdir.

«Bəşəriyyətin bütün həyatı ardıcıl surətdə kitabda əks olunmuşdur. Qəbilələr, insanlar, dövlətlər yer üzündən silinmiş, kitab isə qalmışdır. O, bəşəriyyətlə birlikdə yüksəlmiş, beyinləri təlatümə gətirən bütün ehtiraslar kitabda canlanmışdır»... 25 yaşlı Aleksandr Gertsen 1837-ci il dekabrın 6-da Vyatka kütləvi kitabxanasının açılışı zamanı belə demişdi. Bütün zamanların və xalqların ən böyük ixtirası olan kitab nəsillərin kollektiv sosial və mənəvi təcrübəsinin əks olunmasına və təmərküzləşməsinə kömək edir.




*Sərlövhəyə çıxarılmış sual bir çoxlarına ritorik görünə bilər. Bizlərdən hər birimiz hər gün, hər saat kitabla qarşılaşır və onun nə demək olduğuna çox yaxşı bələdik. Lakin bütün bunlara baxmayaraq, sual ilk baxışda göründüyü qədər də sadə deyildir.*

Böyük rus tədqiqatçısı V.Belinski deyərdi: «Kitab zamanımızın həyatıdır». XVII əsrdə yaşamış ingilis şairi U.Devenant kitab haqqında bu fikri söyləmişdir: «Kitab əbədiyyətə qovuşan zəkaların şərəfinə ucaldılmış abidədir». İlk baxışda təzadlı fikirlərdir. Lakin əslində kitab çoxcəhətli və rəngarəngdir.

1929-cu ildə Kiyevin «Mədəniyyət» nəşriyyatının «Kitab haqqında» adlı diqqətəlayiq əsəri çapdan çıxmışdı. Kitabın belə bir yarımsərlövhəsi var idi: «Kitab anlayışının təhlil təcrübəsi». Əsərin müəllifi, Ukrayna kitabşünası M.F.Yanovski 51 tərif toplamış və təhlil etmişdir. O, bütün bu tərifləri qeyri-qənaətbəxş saymış və axırda öz tərifini vermişdir: «O, görmə və ya duyğu orqanları vasitəsilə sabit formada qavranılır».

Bəs kitab haqqında təriflər axınından necə baş açmalı: əgər təriflər qruplaşdırılsa, aydın olar ki, onların əksəriyyəti cüzi və qeyri prinsipial fərqlə bir-birini təkrar edir.

Kitabın nə demək olduğunu araşdırmaq üçün göstərilən cəhdlərin tarixi ən azı iki əsr yarımlıq bir dövrü əhatə edir. Bu tarixi faktlar, adlar və hadisələrlə zəngindir.

Məsələn, İtaliyada belə hesab edirdilər ki, kitabda 100-dən çox səhifə olmamalıdır. Böyük Britaniyada statistika yalnız müəyyən nominaldan aşağı olmayan qiymətlə azad satışa buraxılmış kitabları hesaba alırdı. Belə bir şəraitdə mətbu əsərlərin beynəlxalq statistika uçotunu aparmaq mümkün deyildi.

Kitabın formasından və ya həcmindən deyil, məzmunundan çıxış edən müəlliflərin verdikləri təriflər XVIII əsrə aiddir. Fransız maarifpərvərləri D.Didronun və J.Dalamberin «İncəsənət və peşə ensiklopediyası» adlı məşhur əsərində aşağıdakı tərif verilmişdir: «Kitab ağıllı adamın hər hansı bilik sahəsinə aid olub, oxucunu maarifləndirmək və əyləndirmək üçün yazdığı əsərdir».

**Ağaş MİRZƏZADƏ,**
**Günəşli kənd kitabxanasının müdiri**
Lerik